

# Tarixin qurtuluş soraqlı günləri

## *30 il əvvəl xalq ölkədəki xaos və anarxiyadan xilas yolunu Naxçıvanda tapmışdı*

**Müstəqilliyin ilk illərində ölkəmizdə yaşananları heç kəs unutmayıb və unuda bilməz. Ancaq həmin məşəqqət və məhrumiyyətlərin apogeyi ilə bilavasitə 1993-cü ilin birinci yarısında üz-üzə qaldıq.**

Xaos, anarxiya, məmur özbaşınalığı, vətəndaş itaətsizliyi, ordunun vahid idarəetməsinin olmaması, siyasətçilərin əksəriyyətinin öz silahlı dəstəsini formalaşdırması, üstəlik, ərazilərimizin işğalının davam etdirilməsi həmin günlərin ən acı həqiqətləri idi. Ancaq bütün bunların fövqündə daha möhtəşəm bir həqiqət də var idi: Xalqın aydın sabaha olan ümidi ölmür, dövlətçiliyimizin qorunacağına olan inam azalmırdı.

***(ardı 6-cı səhifədə)***

Xalq qəzeti.- 2023.- 11 iyun.- S.1;6.


# Tarixin qurtuluş soraqlı günləri

**(əvvəli 1-ci səhifədə)**

Məhz elə ona görə də 1993-cü ilin ilk altı ayında müasir tariximizin ən dəhşətli – ölkə vətəndaş müharibəsinin bir addımlığına gətirilmişdi – və ən qürurlu – milli dövlətçiliyimizin növbəti dəfə əldən getməsindən xilas yolu tapılmışdı – səhifələri yaranmışdı. Xalq vətəndaş müharibəsindən xilas olmaq üçün də, milli dövlətçiliyimizin əsrin əvvəlindəki taleni yaşamaması üçün də pənah yeri kimi Naxçıvanı seçmiş, "Heydər Əliyev, gəl bu ölkəni bəlalardan, faciələrdən xilas et!" – kimi çağırışları bayraq etmişdi.




Belə çağırışların səsləndirilməsi nə qədər vacib olsa da, bir o qədər də riskli və hətta, təhlükəli idi. Çünki həm xaricdəki bədxahlarımız, həm də ölkədə siyasi hakimiyyətə yiyələnənlər Heydər Əliyevin dövlət idarəçiliyinə qayıtmasını qətiyyən istəmirdilər. Əcnəbilər Heydər Əliyevin adından ona görə qorxurdular ki, onlar bizim dövlət müstəqilliyimizin əleyhinə idilər. Heydər Əliyev gəlsə, müstəqillik əldən getməyəcəkdi. Yerli bədxahlar isə sadəcə öz hakimiyyətlərini qorumaq üçün istənilən mütərəqqi addıma badalaq gəlməyə hazır idilər. Ancaq buna baxmayaraq, "əli Surət Hüseynovun daşı altında qalan" ölkə rəhbərliyi nəinki Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsinə icazə verdi, hətta, ona yalvarmağa başladılar.

Bütün bunlar haqqında daha müfəssəl məlumatları qələmə almaq üçün Azərbaycan Prezidenti Heydər Əliyevin 1996-cı il noyabrın 13-də Türkiyənin TGRT telekanalının "Üz-üzə" proqramına verdiyi müsahibənin bəzi məqamlarına nəzər salmaq kifayətdir. Ulu öndər həmin müsahibədə demişdi ki, 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı: "Bu zaman insanlar gəlib dedilər ki, Azərbaycan dağılır, qardaş qanı tökülür, vətəndaş müharibəsi başlayıbdır, mən Bakıya gəlməliyəm. Gəlmək istəmədim. Çünki doğrusunu deyim, mən Bakıdan küsmüşdüm. Burada bu qədər xidmət göstərməyimə baxmayaraq, mənə qarşı belə münasibət bəslənildiyinə görə küsdüm. Dedim ki, ömrümün sonunadək Naxçıvanda yaşayacağam. Əbülfəz Elçibəy dörd gün ərzində hər gün təyyarə göndərirdi, ancaq mən gəlmirdim. Nəhayət, gəldim gördüm ki, burada işlər, vəziyyət necədir? Gəlib gördüm ki, Azərbaycan dağılır, parçalanır, qardaş qardaşı öldürür. Mən gələndən sonra bir həftə ərzində danışıqlar getdi, sonra parlament sədri seçilməyimə razılıq verdim. Amma iki gün sonra Əbülfəz Elçibəy buradan gizli olaraq qaçdı. Respublika prezidentsiz qaldı. Mən prezidentin səlahiyyətlərini üç-dörd ay icra etdim. Ondan sonra məni prezident seçdilər".

Rəsmi məlumatlarda isə oxuyuruq ki, 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular.

Yəni bütün bunlar, ilk növbədə, xalqın Heydər Əliyev siyasi dühasına olan inamı, son nəticədə isə müstəqil Azərbaycan dövlətinin qurtuluşa doğru gedən yolunun açılması demək idi. Ancaq Prezident İlham Əliyevin fikrincə, bu yolun başlanğıcı ulu öndərin Naxçıvana rəhbərlik etdiyi dövrdə qoyulmuşdu.

Dövlət başçımız xatırladır ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 1990-cı ilin noyabr ayında Naxçıvanda rəsmi dövlət bayrağı kimi Heydər Əliyevin təşəbbüsü ilə qaldırılmışdır. Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, bu bayraq Azərbaycanın dövlət bayrağı kimi elan edilsin: "1991-ci ilin mart ayında Azərbaycanda Sovet İttifaqının saxlanılması haqqında referendum keçirildiyi zaman Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Yəni, bütün bu hadisələr və addımlar Azərbaycan xalqının qəlbində çox böyük əks-səda vermişdir. Təsadüfi deyil ki, Azərbaycan xalqı ən çətin anlarda Heydər Əliyevə müraciət edərək öz seçimini etmişdir".

Bəli, Azərbaycan xalqı qurtuluşa doğru gedən yolu dəqiq müəyyənləşdirmiş və istəyinə nail olmuşdur. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra Azərbaycanda böyük inkişaf və quruculuq işləri aparılmağa başlamışdır. İlk növbədə sabitlik bərpa olunmuş, qanunsuz silahlı birləşmələr tərksilah edilmişdi. Eləcə də, iqtisadi sahədə dəyərli təşəbbüslər irəli sürülmüş və ən önəmlisi ölkənin strateji inkişafı haqqında düzgün seçim edilmişdir. Azərbaycan müasir, dünyəvi, dünya birliyinə inteqrasiya edən, bazar iqtisadiyyatı prinsiplərinə, demokratik əsaslara sadiq ölkə kimi inkişaf etməli idi. O strateji seçimi Azərbaycan xalqı Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildə etmişdir və o ildən bu günə qədər Azərbaycan inkişaf yolu ilə uğurla gedir.

Sonda xatırladaq ki, Prezident İlham Əliyev dövlət müstəqilliyimizin 20 illyi münasibətilə keçirilən təntənəli mərasimdə heç zaman unutmayacağımız fikirlər səsləndirmişdi: "Bu 20 il 120 il, 220 il, 520 il olacaqdır. Müstəqil respublikamız əbədi yaşayacaqdır... Bizdən əvvəlki nəsillər əsrlər boyu müstəqillik eşqi, müstəqillik arzuları ilə yaşamışlar və həyatdan getmişlər. Amma bu müstəqilliyi görməmişlər. Biz, bizim nəsil xoşbəxtdir. Biz nəinki müstəqilliyi görürük, həm də müstəqilliyi möhkəmləndiririk".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***